# 5TH INTERNATIONAL PALESTRA SCIENTIFIC RESEARCH CONGRESS PROCEEDINGS BOOK

**MAY 04-05, 2025 | SKOPJE, N. MACEDONIA**

SKOPJE, N. MACEDONIA

PARTICIPATION FROM
20 DIFFERENT COUNTRIES



EDITORS:

**PROF. DR. TESHABOYEV TO'LQİN ZAKIROVICH**
**PROF. DR. ADEM BAYAR**

ISBN: 978-9952-8558-9-0
DOI: https://doi.org/10.30546/19023.978-9952-8558-9-0.2025.824301.

BZT TURAN
PUBLISHING HOUSE

https://www.palestracongress.com
palestracongress@gmail.com

# 5TH INTERNATIONAL PALESTRA SCIENTIFIC RESEARCH CONGRESS

**MAY 04-05, 2025**

**ONLINE & IN-PERSON PARTICIPATION**

**ZOOM & SKOPJE, NORTH MACEDONIA**

# CONGRESS PROCEEDINGS BOOK

## EDITORS

**PROF. DR. TESHABOYEV TO'LQİN ZAKIROVICH**
**PROF. DR. ADEM BAYAR**

**BZT AKADEMİ PUBLISHING HOUSE®**
PUBLISHED IN BAKU, AZERBAIJAN
TR: +90543 671 0123 GR: +491774586777
palestracongress@gmail.com
https://www.palestracongress.com/

All rights reserved

**BZT AKADEMİ YAYINEVİ®**
**BZT ACADEMY PUBLISHING HOUSE**
**Publishing Date: 12.05.2025**
**ISBN: 978-9952-8558-9–0**
**DOI: https://doi.org/10.30546/19023.978-9952-8558-9-0.2025.824301.**

DOI: https://doi.org/10.30546/19023.978-9952-8558-9-0.2025.824301.
ISBN: 978-9952-8558-9–0



# MODERN EDUCATIONAL PRINCIPLES IN THE METHODOLOGY OF TEACHING FINE ARTS

**Emil Raul oğlu Ağayev**

Teacher of the subject combination commission "Art and physical education" of the Azerbaijan State Pedagogical College under the Azerbaijan State Pedagogical University

ORCID NO: 0000-0001-9354-0839

## Xülasə

Təsviri incəsənət yaradıcı fənlər qrupuna daxildir. Bu fənnin tədrisi metodikasında müasir təlim prinsiplərindən istifadə etməklə, şagirdlərdə yaradıcı qabiliyyətləri ön plana çıxarmaq olar. Müasir təlim prinsiplərinin əsasında şəxsiyyət fenomeni dayanır. Bu məqalədə təsviri sənət fənninin tədrisi metodikasında müasir təlimin müxtəlif prinsipləri təhlil edilmişdir.

**Açar sözlər:**Təsviri sənət, təhsil, müasir təlim, prinsiplər, metodika

## Abstract

Fine arts is included in the group of creative subjects. By using modern teaching principles in the teaching methodology of this subject, creative abilities in students can be brought to the fore. The basis of modern teaching principles is the phenomenon of personality. In this article, various principles of modern teaching in the teaching methodology of fine arts have been analyzed.

**Keywords:** Fine arts, education, modern teaching, principles, methodology

Orta məktəblərdə tədris edilən yaradıcı fənlərdən biri təsviri incəsənətdir. Bu fənnin tədrisi yaradıcı və nəzəri olmaqla şagirdlərdə dünyagörüşünün inkişafı üçün vacibdir. Əlbəttə ki, təsviri incəsənət müəllimi müasir təlim prinsiplərindən istifadə edərək, fənnə şagirdlərdə maraq oyatmalıdır.

Uşaqlar məktəbəqədər yaş dövründə təsviri fəaliyyət dərslərində müxtəlif suallar verir, boyalarla işləməyə maraq göstərir, albom vərəqlərində sadə rəsmlər işləyirlər. Birinci sinifdə isə şagirdlər təsviri incəsənət fənnində müxtəlif formalar, ilkin nəzəri məlumatlar öyrənirlər. "Rəngarəng quşlar" mövzusunda şagirdlər oriqami texnikasından istifadə edərək kağızdan quş formaları işləyir və sonra onları boyayırlar. Bu işin icrası zamanı birinci sinif şagirdləri qayçı, boyalarla ilkin işləmə bacarığını inkişaf etdirirlər. Təsviri incəsənət fənninin tədrisi metodikasında müasir təlim prinsiplərinin ilk mərhələsində birinci sinif şagirdləri bu qaydaları müəllimin köməyi ilə formalaşdırırlar. Formalaşmaqda olan şagird təsviri incəsənət fənninin köməyi ilə müasir təhsildə yaradıcı şəxsiyyət kimi müəyyənləşdirilmiş qabiliyyətlərinə əsaslanır.

Təsviri incəsənət fənninin tədrisi metodikasında şagirdlər üçün idrak fəallığı elə təşkil olunmalıdır ki, yaradıcı və nəzəri biliklərə yiyələnməklə yeni kəşflər etməlidirlər. İncəsənət əsərlərinin təhlilinə yeni münasibət göstərərək, şagirdlərdə bu bacarığda inkişaf etdirilir. Orta məktəblərdə şagirdlər tənqidi və yaradıcı təfəkkürlərinidə fənnin tədrisində istifadə etməlidirlər. Anri Matissin yaradıcılığında mühüm yer tutan "İlbiz" əsərini təhlil edən şagirdlər həmçinin yaradıcı təfəkkürlərindən istifadə edərək, yeni ilbiz obrazınıda kəşf edə bilərlər.

DOI: https://doi.org/10.30546/19023.978-9952-8558-9-0.2025.824301.

ISBN: 978-9952-8558-9–0



**İLL 1. Anri Matis "İlbiz"**

Təsviri incəsənət fənninin tədrisi metodikasında müasir təlim prinsiplərindən biri şagirdlərin inkişafedici qabiliyyətlərinin formalaşdırılmasıdır. Şagirdlərdə həmçinin mürəkkəb əsərlərə münasibət bildirmək, rəssamların yaradıcılıqlarının müqayisə edilməsi kimi fikirlərdə formalaşdırılmalıdır. Müəllimin əsas funksiyası şagirddə yaradıcı təfəkkürün formalaşdırılması ilə inkişafedici təlim prinsipi şagirdə ötürülməlidir.

Təsviri incəsənət fənninin tədrisində "Qabaqlayıcı təlim" prinsipinin rolunu təhlil etsək, müasir təhsilin ən mühüm prioriteti hesab edilən şagirdlərin həyata hazırlanması prosesidir. Məktəb şagirdə təsviri incəsənət haqqında baza bilikləri verməklə kifayətlənməməli, həmçinin informasiyaları müstəqil əldə edərək yaradıcı formada təqdim etməlidirlər.

Müasir təlim prinsiplərindən hesab edilən təlim-tərbiyə sisteminin çevikliyi prinsipində təsviri incəsənət müəllimi hər bir şagirdə fərdi yanaşaraq, əsərləri hiss edərək fərdi münasibətini bildirməyi şərait yaratmalıdır. Azərbaycan incəsənətini öyrənən şagirdlər incəsənət əsərlərinə estetik münasibət bildirməklə öz yaradıcı təhliletmə qabiliyyətlərini nümayiş etdirirlər.

Təsviri incəsənət fənninin tədrisi metodikasında müasir təlim prinsiplərindən biri də müəllim-şagird əməkdaşlığıdır. Bu təlim prinsipinin əsasında dinamik, qarşılıqlı öyrənməkdir. Burada şagird müəllimin yanında iştirak edərək, fəallaşır və fənnə qarşı münasibəti yüksəlir.VI sinifdə "Heykəltəraşlığın növləri" mövzusunu keçəndən sonra müəllim şagirdlə birlikdə gildən statuyetkalar, kiçik fiqurlar birlikdə işləyə bilər.

Hər bir fənninin tədrisində olduğu kimi təsviri incəsənətdə də dialoji təlim prinsipindən istifadə edilir. Təqdim edilən tapşırıqlarda şagirdlər qarşılıqlı olaraq bir-birlərinin fikirlərini bölüşdürməyi, müzakirələrdə və dialoqlarda fəal iştirak etməlidirlər. Bütün bu prinsiplərin hər biri təsviri incəsənət fənninin tədrisində istifadə edilməklə bərabər, tədrisin keyfiyyətini yüksəldir.

DOI: https://doi.org/10.30546/19023.978-9952-8558-9-0.2025.824301.
ISBN: 978-9952-8558-9–0



## ƏDƏBİYYAT SİYAHISI:

1.Ümumtəhsil müəssisələrinin VIII sinfi üçün dərslik. Bakı 2020. S 60-63.

2.Ümumtəhsil müəssisələrinin VI sinfi üçün dərslik. Bakı 2020. S 36-38.

3.Veysova Z. “Fəal interaktiv təlim”. S 9-10.